https://doi.org/10.61775/2413-3302.v1i39.09 Tibb və Elm Jurnalı, №1 (39) 2025, 59-63

# COVID-19 KEÇİRMİŞ XƏSTƏLƏRDƏ BURUN XƏSTƏLİKLƏRİNİN SPEKTRİ

**Dadaşeva N.B.***

*Azərbaycan Tibb Universiteti, Otolarinqologiya kafedrası, Bakı, Azərbaycan*

**Aktuallıq.** Hal-hazırda COVİD-19 pandemiyasından öncəki dövrlərlə müqayisədə LOR orqanlarının,xüsusən də burun funksiyalarının pozulması ilə müraciət edən xəstələr arasında hospitalizasiya hallarının artması nəzərə çarpır. **Məqsəd:** COVID-19 xəstəliyini keçirmiş şəxslərdə burun xəstəliklərinin yayılma tezliyini müəyyənləşdirmək idi. **Materiallar və metodlar.** Tədqiqatda burun xəstəlikləri olan 392 xəstə iştirak etmişdir. Bütün xəstələr əvvəl COVID-19 keçirmişdilər. **Nəticələr.** Xəstələrin 32,4%-ində rinit, 27,6%-ində burun arakəsməsinin əyriliyi, 9,7%-ində sinusit, 5,9%-ində adenoid vegetasiyalar, 4,3%-ində isə burun polipozu aşkarlanmışdır. Xəstələrin 20,1%-ində bir neçə xəstəliyin birləşməsi müşahidə olunmuşdur; onlardan 17,3%-ində iki, 2,8%-ində isə üç xəstəlik eyni vaxtda mövcud idi. Kəskin rinit 3,3% xəstədə, xroniki rinit isə 29,1% xəstədə qeyd olunmuşdur: allergik rinit (19,4%), vazomotor tip (8,9%), hiperplastik tip (0,8%). Kəskin sinusit 1,0% xəstədə, xroniki sinusit isə 8,7% xəstədə müşahidə olunmuşdur. Hiperplastik sinusit 8,9% xəstədə, irinli sinusit isə tibbi yardım üçün müraciət edən xəstələrin 0,8%-ində müəyyən edilmişdir. **Yekun:** COVİD-19 keçirmiş xəstələrin əksəriyyətində burunun xroniki iltihabi xəstəlikləri və müştərək patologiyalar aşkar olunur.Bu da ağırlaşmaların profilaktikası və həyat keyfiyyətinin artırılması istiqamətində erkən diaqnostika və kompleks müalicənin vacibliyini göstərir.

**Açar sözlər:** LOR xəstəlikləri, burun xəstəlikləri, COVID-19

**Giriş**. Qulaq, boğaz və burun (LOR) xəstəlikləri geniş yayılması və baş-boyun nahiyəsində səbəb olduqları fizioloji funksiyalara görə ciddi ictimai sağlamlıq problemi hesab olunur. LOR xəstəlikləri təbiətinə görə müxtəlifdir. Onlar anadangəlmə və ya qazanılmış, yoluxucu, allergik və ya iltihablı, xoşxassəli və ya bədxassəli ola bilər [1].

LOR xəstəlikləri təcili yardım şöbələrinə müraciətin geniş yayılmış səbəblərindən biridir. Pasiyentlər çox vaxt ümumi praktik həkimlər və ya digər həkimlər tərəfindən LOR mütəxəssislərinə yönləndirilirlər. Qeyd olunur ki, LOR xəstəliklərinin simptomları bütün müraciətlərin təxminən 10%-ni təşkil edir [2].

Otolarinqoloqlar müxtəlif xarakterə malik geniş spektrli otolarinqoloji xəstəliklərlə qarşılaşırlar. Qazanılmış xəstəliklərə infeksiyalar, iltihabi xəstəliklər, nevroloji xəstəliklər, damar xəstəlikləri, travmalar, xoşxassəli və bədxassəli şişlər daxildir [3]. Ən çox rast gəlinən otolarinqoloji xəstəliklərə orta otit (kəskin və xroniki), tonzillit, kəskin larinqotraxeobronxit, adenoidit, qulaqda yad cisim və qulaqda göbələk infeksiyası olan və ya olmayan qulaq tıxacın yaranması və s. daxildir [4]. Qulaq, boğaz, burun, baş və boyun xəstəlikləri onlara xas olan fizioloji funksiyaların pozulması nəticəsində törətdikləri xəstəliklərin təbiətinə görə çox əhəmiyyətlidir. Onlara eşitmə, nəfəsalma, udma, fonasiya, nitq, qoxu, dadbilmə, aşağı tənəffüs yollarının qorunması və sekresiyanın xaric olunması ilə bağlı problemlər aiddir [5].

Burun xəstəlikləri, xüsusilə allergik iltihabla müşayiət olunanlar, COVID-19-un gedişatının riski və şiddətindəki dəyişikliklərlə əlaqəlidir [6]. Pasiyent üçün əsas "giriş qapıları" burun və burun-udlaqdır. Yoluxmuş pasiyentlər üzərində aparılan tədqiqatda SARS-CoV-2 virus yükünün boğazla müqayisədə burunda daha yüksək olduğu müəyyən edilmişdir [6].

Təcili otolarinqoloji hallar bütün ölkələrdə geniş yayılmışdır. Otolarinqoloji təcili halların yaranma tezliyi əhali arasında xüsusilə qış aylarında artır [4]. Aydındır ki, təcili yardım şöbəsində müşahidə olunan LOR-orqanların xəstəlikləri ilə bağlı epidemioloji tendensiyalar pandemiya dövründə dəyişmişdir. Hazırda əvvəlki dövrlərlə müqayisədə daha az müraciət, lakin daha çox hospitalizasiya qeydə alınmışdır [7].

Bir neçə genişmiqyaslı tədqiqat istisna olmaqla, LOR xəstəliklərinin yayılma tezliyi və tiplərinin qiymətləndirilməsi üzrə işlər bu sahədə kifayət qədər deyil. Bu xəstəliklərin epidemioloji profilinin anlaşılması həmin xəstə kontingentinə göstərilən tibbi xidmətin keyfiyyətinin artırılmasına kömək edə bilər.

Hazırkı **tədqiqatın məqsədi** COVID-19 keçirmiş pasiyentlər arasında burun xəstəliklərinin yayılma tezliyini müəyyən edilməsi olmuşdur.

**Material və metodlar.** Tədqiqat üçün LOR şöbəsinə müraciət edən pasiyentlər seçilmişdir. Ümumilikdə tədqiqatda əvvəllər COVID-19 keçirmiş 392 pasiyent iştirak etmişdir. Tədqiq olunan pasiyentlərdə anamnez toplanmış, zəruri məlumatlar qeydə

*e-mail: nigardadasheva@gmail.com

alınmış və LOR-orqanları müayinə olunmuşdur. Statistik analiz Microsoft Excel və SPSS statistik proqramlarından istifadə etməklə aparılmışdır.

**Nəticələr.** Pasiyentlərin burun xəstəliklərinə görə bölgüsü şək. 1-də təqdim olunmuşdur.




**Şək. 1. Müayinə olunan xəstələrin LOR xəstəliklərinə görə bölgüsü**

Müraciət edən pasiyentlər arasında daha çox rast gəlinənlər rinit – 127 (32,4%) nəfərdə və burun şəpərinin (arakəsməsinin) əyriliyi – 108 (27,6%) nəfərdə olmuşdur. 38 (9,7%) pasiyentdə sinusit, 23 (5,9%) pasiyentdə adenoid vegetasiya diaqnozu qoyulmuş, 17 (4,3%) pasiyentdə isə burun polipozu müşahidə olunmuşdur. Müştərək patologiyalarının rast gəlməsi 79 (20,1%) pasiyentdə müşahidə olunmuşdur ki, onların 68-də (17,3%) 2 xəstəlik, 11-də (2,8%) isə 3 xəstəlik qeydə alınmışdır. Toplanmış anamnezə əsasən, 15 yaşdan yuxarı olan 23 pasiyent adenoid vegetasiyadan əziyyət çəkmişdir.

Müayinə göstərmişdir ki, rinitli 127 pasiyent arasında xəstəliyin xroniki forması üstünlük təşkil etmişdir (şək. 2). Kəskin rinit 13 (3,3%) pasiyentdə, xroniki rinit isə 114 (29,1%) pasiyentdə diaqnoz olunmuşdur. Pasiyentlərin xroniki rinit tiplərinə görə bölgüsü şək. 3-də təqdim olunmuşdur. Rinitin ən çox yayılmış tipi allergik rinit olmuşdur və 76 (19,4%) pasiyentdə qeydə alınmışdır. Xroniki rinitin vazomotor tipi 35 (8,9%) pasiyentdə, hiperplastik tipi isə 3 (0,8%) müraciət edən pasiyentdə rast gəlinmişdir.

Sinusitli 38 (9,7%) pasiyentdən 4-də (1,0%) xəstəliyin kəskin forması, 34-də (8,7%) isə xroniki forması aşkar olunmuşdur. Sinusitin hiperplastik tipi 35 (8,9%) pasiyentdə, irinli sinusit isə müraciət etmiş 3 (0,8%) pasiyentdə müşahidə olunmuşdur.




**Şək. 2. Rinit tiplərinin raşt qəlmə tezliyi**




**Şək. 3. Müraciət etmiş pasiyentlərdə xroniki rinitin tipləri**

**Müzakirə.** Müraciət edən pasiyentlərdə burun xəstəliklərinin spektrinə rinit və sinusit (kəskin və xroniki), burun çəpərinin əyriliyi kimi geniş yayılmış xəstəliklər; allergik rinit və burun polipləri kimi iltihabi hallar daxil idi.

Aparılmış tədqiqat COVID-19 xəstəliyini keçirmiş və LOR şöbəsinə müraciət etmiş pasiyentlərdə burun xəstəliklərinin spektrini xarakterizə etməyə imkan verdi. Aşkar edilmiş patologiyalar arasında ən böyük payı rinitlər təşkil etmişdir, xüsusilə xroniki rinitlər (29,1%), bu da həm postkovid dövrdə burun selikli qişasında baş verən dəyişikliklərlə, həm də ətraf mühit faktorlarının təsiri ilə əlaqəli ola bilər. Ən çox rast gəlinən allergik rinit (19,4%) olmuşdur, bu da yuxarı tənəffüs yollarının allergik xəstəliklərinin diaqnostikasına və vaxtında müalicəsinə xüsusi diqqət yetirilməsinin vacibliyini göstərir. Nəticələrimiz ədəbiyyat məlumatları ilə üst-üstə düşür; həmin məlumatlarda qeyd olunur ki, allergik rinit dünya üzrə təqribən 400 milyon insanın düçar olduğu qlobal sağlamlıq problemidir. Bu xəstəliyin yayılma tezliyi illər keçdikcə artır və əsas səbəblərdən biri hesab edilən urbanizasiyanın və ətraf mühitin çirklənməsinin artması ilə sıx bağlıdır. Qeyd etmək lazımdır ki, bu xəstəliyin yayılma göstəriciləri 1990-cı illərdən etibarən əhəmiyyətli dərəcədə artmışdır [8, 9].

Pasiyentlərin əhəmiyyətli bir hissəsini burun çəpərinin əyriliyi (27,6%) və müştərək patologiyaları olanlar (20,1%) təşkil etmişdir ki, bu da ikincili iltihabi proseslərin formalaşmasında anatomik faktorların yüksək klinik əhəmiyyətini təsdiqləyir.

Qeyd etmək lazımdır ki, burun çəpərinin əyriliyi olduqca geniş yayılmış bir haldır: əhalinin 90%-ə qədərində müəyyən dərəcədə burun çəpərinin deformasiyası mövcuddur, lakin insanların əksəriyyəti bundan xəbərsizdir. LOR həkimlərinə müraciətlərin tezliyi birbaşa burun çəpərinin əyriliyinin olması ilə deyil, daha çox onun ağırlıq dərəcəsi və ortaya çıxan simptomlarla bağlıdır. İnsanlar əsasən tənəffüs çətinliyi, burun qanaxmaları və ya xroniki tıxanıqlıq kimi simptomlarla LOR həkimlərinə müraciət edirlər ki, bunlar da burun çəpərinin əyriliyi ilə əlaqəli ola bilər [10, 11]. Bildirilir ki, burun tıxanıqlığı pasiyentlərin həyat keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir, qoxu sinirinin funksiyasının bərpası isə burun tıxanıqlığı olan pasiyentlərin psixoloji vəziyyətinə müsbət təsir edir [12, 13].

Əldə etdiyimiz nəticələrə əsasən, sinusitin xroniki formalarının (8,7%), o cümlədən hiperplastik tipinin mövcudluğu belə pasiyentlərin kompleks müayinəsinin və uzunmüddətli müşahidəsinin vacibliyini vurğulayır. Təcrübə göstərir ki, pasiyentlər sinusit müalicəsi üçün simptomlar ağırlaşdıqda, 7–10 gün ərzində yaxşılaşma olmadıqda, ilkin yaxşılaşmadan sonra vəziyyət pisləşdikdə və ya xəstəliyin tez-tez təkrarlanan simptomları müşahidə olunduqda müraciət edirlər. Ədəbiyyat məlumatlarına əsasən, xəstəliyin illik yayılma tezliyi ABŞ və Avropada 10%-dən 15%-ə və daha çox qiymətləndirilir, və hər il ABŞ-da 37 milyona qədər yetkin insan sinusitlə xəstələnir. Rastgəlmə tezliyi dəyişir, lakin yuxarı tənəffüs yollarının virus infeksiyası olan uşaqların təxminən 6–13%-də, böyüklərin isə 2%-də kəskin bakterial sinusit inkişaf edir [14, 15].

COVID-19 burun xəstəliklərinin yaranmasına təkan verə və ya mövcud xəstəlikləri ağırlaşdıra bilər, eyni zamanda bəzi burun xəstəlikləri COVID-19 infeksiyasının ağırlığına təsir edə bilər [16].

Beləliklə, əldə olunmuş nəticələr göstərir ki, COVID-19 xəstəliyini keçirmiş pasiyentlərdə burun xəstəliklərinin spektri əsasən xroniki iltihabi proseslərin üstünlüyü ilə xarakterizə olunur və bu proseslər çox vaxt anatomik dəyişikliklərlə yanaşı gedir. Bu, erkən diaqnostikanın, fərdi müalicə seçiminin və xroniki patologiyanın inkişafının qarşısının alınmasına və pasiyentlərin həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş profilaktik tədbirlərin aparılmasının zəruriliyini əsaslandırır.

**Yekun.** COVID-19 xəstəliyini keçirmiş pasiyentlərdə burun xəstəliklərinin spektri xroniki iltihabi proseslərin, xüsusilə xroniki rinit (29,1%) və sinusit (8,7%), həmçinin müştərək patologiyaların yüksək səviyyəsi (20,1%) ilə xarakterizə olunur. Bu, xəstəliklərin inkişafının qarşısının alınması və pasiyentlərin həyat keyfiyyətinin yaxşılaşdırılması üçün erkən diaqnostikanın və müalicəyə kompleks yanaşmanın zəruriliyini vurğulayır.

**ƏDƏBİYYAT – REFERENCES – ЛИТЕРАТУРА**


1. Ta NH. ENT in the context of global health // Ann R Coll Surg Engl. 2019;101(2):93-96. doi: 10.1308/rcsann.2018.0138.
2. Sorichetti BD, Pauwels J, Jacobs TB, Chadha NK, Kozak EL, Kozak FK. High frequency of otolaryngology/ENT encounters in Canadian primary care despite low medical undergraduate experiences // Can Med Educ J. 2022;13(1):86-89. doi: 10.36834/cmej.72328.
3. Mahfuz SI, Kabir A, Sharif A. Pattern of ENT Diseases in Outpatient Department in a District Level Hospital in Bangladesh // Bangladesh J Otorhinolaryngol. 2020; 23 (1): 74-82.
4. Shrestha, K.K., Dhungana, A., Joshi, R.R., Shrestha, S., Mishra, S. Prevalence of Common Ear Nose and Throat Diseases in a Tertiary Care Center during Monsoon Season in Nepal // Nepal Medical College Journal. 2025; 27(1): 70–75. doi: 10.3126/nmcj.v27i1.77546
5. Lukama L, Aldous C, Michelo C, Kalinda C Ear, Nose and Throat (ENT) disease diagnostic error in low-resource health care: Observations from a hospital-based cross-sectional study // PLoS ONE. 2023; 18(2): e0281686. doi: 10.1371/journal.pone.0281686
6. Jian L, Yi W, Zhang N, Wen W, Krysko O, Song WJ, Bachert C. Perspective: COVID-19, implications of nasal diseases and consequences for their management // J Allergy Clin Immunol. 2020;146(1):67-69. doi: 10.1016/j.jaci.2020.04.030
7. Papadopoulos N, Prokopakis EP, Karatzanis AD, Linardakis M, Mourellou E, Symvoulakis EK. Features of ENT Cases in the Emergency Department of a Tertiary Hospital in Greece: A Prospectively Driven Data Collection Study // Healthcare. 2023; 11(13):1943. doi: 10.3390/healthcare11131943
8. Alam AU, Ullah MK, Shakil M, Rahman SMT, Ahamed MK, Sarower MG. Prevalence of Otolaryngological Diseases in General Population: A Study in Eastern Medical College Hospital // Eastern Med Coll J. 2022; 7 (1): 6-10.
9. Nur Husna SM, Tan HTT, Md Shukri N, Mohd Ashari NS and Wong KK (2022) Allergic Rhinitis: A Clinical and Pathophysiological Overview // Front. Med. 9:874114. doi: 10.3389/fmed.2022.874114
10. Kazimierczak N, Kazimierczak W, Serafin Z, Nowicki P, Lemanowicz A, Nadolska K, Janiszewska-Olszowska J. Correlation Analysis of Nasal Septum Deviation and Results of AI-Driven Automated 3D Cephalometric Analysis // Journal of Clinical Medicine. 2023; 12(20):6621. doi: 10.3390/jcm12206621
11. Alghamdi FS, Albogami D, Alsurayhi AS, Alshibely AY, Alkaabi TH, Alqurashi LM, et al. Nasal Septal Deviation: A Comprehensive Narrative Review // Cureus. 2022;14(11):e31317. doi: 10.7759/cureus.31317.
12. Valsamidis K, Printza A, Constantinidis J, Triaridis S. The Impact of Olfactory Dysfunction on the Psychological Status and Quality of Life of Patients with Nasal Obstruction and Septal Deviation // Int Arch Otorhinolaryngol. 2020;24(2):e237-e246. doi: 10.1055/s-0040-1701269.
13. Teixeira J, Certal V, Chang ET, Camacho M. Nasal Septal Deviations: A Systematic Review of Classification Systems // Plast Surg Int. 2016;2016:7089123. doi: 10.1155/2016/7089123.
14. Ringel B, Kons ZA, Holbrook EH, Gray ST. Trends of Odontogenic Sinusitis Incidence During the COVID-19 Pandemic // Laryngoscope. 2024;134(4):1597-1602. doi: 10.1002/lary.31082.
15. Min HK, Lee S, Kim S, Son Y, Park J, Kim HJ, et al. Global Incidence and Prevalence of Chronic Rhinosinusitis: A Systematic Review // Clin Exp Allergy. 2025;55(1):52-66. doi: 10.1111/cea.14592.
16. Yücedağ F, Kahraman ŞŞ. A comparison of nasal mucociliary clearance time in COVID-19 and variant COVID-19 patients // B-ENT. 2023;19(1):14-17.


## РЕЗЮМЕ

## СПЕКТР ЗАБОЛЕВАНИЙ НОСА У ПАЦИЕНТОВ ПЕРЕНЕСЩИХ COVID-19


**Дадашева Н.Б.**

*Азербайджанский Медицинский Универсиитет, кафедра Отоларингологии, Баку, Азербайджан*



**Актуальность.** В настоящее время, по сравнению с периодом до пандемии COVID-19 наблюдается заметное

увеличение случаев госпитализации среди пациентов, обращающихся с нарушениями функций ЛОР-органов, в частности носа. **Цель:** определение распространенности заболеваний носа среди пациентов, после перенесенного COVID-19. **Материал и методы.** В исследовании приняли участие 392 пациента с заболеваниями носа. Все пациенты ранее перенесли COVID-19. **Результаты.** У 32,4% пациентов диагностирован ринит, у 27,6% - искривление носовой перегородки, у 9,7% пациентов-синусит, у 5,9% пациентов – аденоидная вегетация, у 4,3% -наблюдался полипоз носа. Сочетание заболеваний отмечалось у 20,1% пациентов, из которых у 17,3% пациентов отмечались 2 заболевания, у 2,8% пациентов - 3 заболевания. У 3.3% пациентов отмечался острый ринит, у 29,1% - хронический ринит: аллергический ринит (19,4%), вазомоторный тип (8,9%) гиперпластический тип (0,8%). Острый синусит отмечался у 1,0%, хронический – у 8,7% пациентов. Гиперпластический тип синусита наблюдался у 8,9% пациентов, гнойный синусит – у 0,8% обратившихся пациентов. **Заключение.** У пациентов, перенёсших COVID-19, наиболее часто выявляются хронические воспалительные заболевания носа и сочетанные патологии. Это подчёркивает необходимость ранней диагностики и комплексного лечения, направленного на профилактику осложнений и повышение качества жизни.
**Ключевые слова:** ЛОР-заболевания, заболевания носа, COVID-19

## SUMMARY

## THE SPECTRUM OF NASAL DISEASES IN PATIENTS WHO HAVE HAD COVID-19

**Dadasheva N.B.**
*Azerbaijan Medical University, Department of Otolaryngology, Baku, Azerbaijan*

**Background.** At present, compared to the period before the COVID-19 pandemic, there is a noticeable increase in hospitalization cases among patients presenting with disorders of the ENT organs, particularly nasal functions. **The aim:** to determine the prevalence of nasal diseases among patients who had had COVID-19. **Materials and methods.** The study included 392 patients with nasal diseases. All patients had previously had COVID-19. **Results.** 32.4% of patients were diagnosed with rhinitis, 27.6% with a deviated septum, 9.7% with sinusitis, 5.9% with adenoid vegetation, and 4.3% with nasal polyposis. A combination of diseases was observed in 20.1% of patients, of whom 17.3% had two diseases and 2.8% had three diseases. Acute rhinitis was observed in 3.3% of patients, chronic rhinitis in 29.1%: allergic rhinitis (19.4%), vasomotor type (8.9%), hyperplastic type (0.8%). Acute sinusitis was observed in 1.0% of patients, chronic sinusitis in 8.7%. Hyperplastic sinusitis was observed in 8.9% of patients, purulent sinusitis in 0.8% of patients who sought medical attention. **Conclusion.** Patients who have had COVID-19 most often develop chronic inflammatory diseases of the nose and associated pathologies. This underscores the need for early diagnosis and comprehensive treatment aimed at preventing complications and improving quality of life.
**Keywords:** ENT diseases, nasal diseases, COVID-19

*Redaksiyaya daxil olub; 21.10.2024*
*Çapa tövsiyə olunub: 16.11.2024*
*Rəyçi: t.ü.f.d. Ş.İ.Quvalov*